Bank
Respublika

Tarix: 30.09.2026
Emitent: Bank Respublika ASC
Ünvan: Xaqani küç., 21, AZ1000, Bakı Azərbaycan
Office@bankrespublika.az
www.bankrespublika.az

Açıqlanan insayd məlumatın başlığı:
"Bank Respublika" ASC-nin nizamnamə kapitalının artırılması

İnsayd məlumatın məzmunu:

"Bank Respublika" Açıq Səhmdar Cəmiyyətinin 24 sentyabr 2026-cı il tarixində keçirilmiş Səhmdarların Növbəti Ümumi Yığıncağında aşağıdakı qərarlar qəbul edilmişdir:

1. "Bank Respublika" ASC-nin nizamnamə kapitalının əvvəlki illərin bölüşdürülməmiş xalis mənfəəti hesabına artırılması qərara alınmışdır. Bu məqsədlə dövlət qeydiyyat nömrəsi AZ1003002883 olan, hər birinin nominal dəyəri 6,65 (altı manat altmış beş qəpik) manat təşkil edən 30 188 200 (otuz milyon yüz səksən səkkiz min iki yüz) ədəd adi, sənədsiz adlı səhmin nominal dəyərinin 7,96 (yeddi manat doxsan altı qəpik) manata artırılması təsdiq edilmişdir.
2. Nizamnamə kapitalının artırılması nəticəsində səhmlərin ümumi sayı dəyişməz saxlanılmaqla, hər bir səhmin nominal dəyərinin 7,96 (yeddi manat doxsan altı qəpik) manat, buraxılış daxilində səhmlərin məcmu nominal dəyərinin isə 240 298 072,00 (iki yüz qırx milyon iki yüz doxsan səkkiz min yetmiş iki) manat təşkil etməsi və səhmlərin qapalı yerləşdirmə üsulu ilə yerləşdirilməsi qərara alınmışdır.
3. Bu qərardan irəli gələn məsələlərin icrasının "Bank Respublika" ASC-nin İdarə Heyətinə həvalə edilməsi qərara alınmışdır.

Açıq Səhmdar Cəmiyyəti Bank Respublika Open Joint-Stock Company

İdarə Heyəti Sədrinin müavini **Aslan Abasov**